**Daşkəsəndə illərdən bəri rayon səviyyəsində çox problemlər yığılıb. Onların aradan qaldırılması istiqamətində hazırda müvafiq addımlar atılır. Bu sırada yeni təyin olunmuş rəhbər kadrlara böyük ümidlər bəslənilir.**



# Ümidlər doğruldacaq

**Təbii ki, bizi ilk növbədə mədəniyyət və turizm sahəsində aparılacaq işlər, gerçəkləşdiriləcək layihələr maraqlandırır. Bölgəyə səfərimizdən məqsəd də bu idi. Yeri gəlmişkən, bu yaxınlarda Daşkəsən Rayon Mədəniyyət və Turizm Şöbəsində də kadr dəyişikliyi aparılmışdır. Elçin Qurbanov ona göstərilən yüksək etimadı doğrultmadığından tutduğu vəzifədən azad edilmişdir.**

Rayonda olarkən şöbə müdiri vəzifəsinə yeni təyinat almış Hacı Məmmədovla görüşdük və öyrəndik ki, o artıq bir sıra kəndlərdə olmuş, yerlərdə vəziyyətlə maraqlanmış, mədəni-maarif müəssisələrinin rəhbərləri ilə müvafiq söhbətlər aparmış, çatışmazlıqların ləğvi istiqamətində lazımi tapşırıqlar vermişdir.

İlk günlərdən vəzifəsinə məsuliyyətlə yanaşması və tərcümeyi-halı ilə tanışlıq bizdə belə bir inam təlqin edir ki, Hacı müəllim ona olan ümidləri ləyaqətlə doğruldacaqdır.

Məlumat üçün bildiririk ki, Məmmədov Hacı Cilo oğlu 1953-cü il sentyabrın 2-də Gəncə şəhərində anadan olub. Gəncə Dövlət Pedaqoji Universitetinin tarix fakültəsini bitirib. Laçın rayonunun Aşağı Fərəcan kənd məktəbində və Daşkəsən rayon 64 saylı orta texniki peşə məktəbində müəllim işləyib.

1984-cü ilin fevralından 1992-ci ilin sentyabrınadək Daşkəsən Rayon Kino Birliyinin direktoru olub. Bir il N.Nərimanov adına 3 saylı məktəbdə müəllim işlədikdən sonra rayon kinovideo idarəsinə direktor təyin olunub və 1995-ci ilin aprelinədək burada çalışıb.

1995-ci ilin aprelindən 1999-cu ilin avqustunadək Gəncə Rayonlararası Kinovideo Filmləri Kirayəvermə idarəsinin direktoru, 1999-cu ilin sentyabrından 2006-cı ilin sentyabrınadək Daşkəsən şəhər 3 saylı məktəbin direktor müavini, 2006-cı ilin sentyabrından 2011-ci ilin aprelinədək həmin məktəbin direktoru olub.

2011-ci il aprelin 27-dən Daşkəsən Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiridir. Ailəlidir, 3 oğlu var.

**Tural**

**P.S.** Yüksək təyinat munasibətilə biz də "Mədəni-maarif" jurnalının yaradıcı kollektivi və çoxsaylı oxucuları adından Hacı müəllimi təbrik edir, ona gələcək fəaliyyətində uğurlar diləyirik.